

# MENARINI ŞİRKƏTİNİN ÜÇÜNCÜ TƏRƏFLƏRİN GLOBAL DAVRANIŞ KODEKSİ

**Ethical** vision,
**Integrity** in action

MENARINI
group

## Giriş

**Menarini şirkəti bütün işgüzar fəaliyyətini vicdanla və bütün tətbiq olunan qanunlara və normativ aktlara uyğun həyata keçirməyə çalışır. Biz etik davranışı təşviq edir və hərəkətlərimizə iqtisadi, sosial və ekoloji sabitliyə nail olmaq üçün təkan veririk.**

**Biz bütün *Üçüncü tərəflərdən* üçüncü tərəflərin bu Qlobal DAVRANIŞ kodeksində (bundan sonra "GTP kodeksi") ifadə olunan prinsipləri bölüşməyi gözləyirik. Menarini şirkəti həmçinin üçüncü tərəflərin öz işçilərindən və Menarini üçün və ya onunla birlikdə mal və xidmətlərin təmin edilməsi ilə məşğul olan öz təşkilatından kənarda hər hansı şəxsdən eyni səviyyəli vicdanlı və işgüzar Davranışı tələb etməsini gözləyir. Bütün üçüncü tərəflər müqavilə və fakt üzrə öz subtəchizatçılarının və subtədarükçülərin bu GTP Kodeksinə riayət etmələrini təmin etməlidirlər.**

**Menarini tərəfindən işə cəlb edilməmiş, şirkətin adi fəaliyyət çərçivəsində müqavilə bağladığı tədarükçülər, təchizatçılar, distribütorlar, məsləhətçilər və digər biznes tərəfdaşları kimi hər hansı bir fiziki və ya hüquqi şəxs**

**Üçüncü tərəflər bütün tətbiq olunan qanunlara və normativ bazaya riayət etməli, həmçinin yerli hakimiyyət orqanlarından təsdiqlər, sertifikatlar və icazələr kimi lazımi sənədləri əldə etməli və saxlamalıdırlar.**

**Bu GTP Kodeksinə üçüncü tərəflərin riayət etməsi tələb edilən tətbiq olunan hüquqi bazanın tam siyahısı daxil olmasa da, o, Menarini şirkətlər qrupu üçün ən vacib mövzulara diqqət yetirmək üçün nəzərdə tutulmuşdur.**

## İŞGÜZAR ETİKA 4

Rüşvətxorluqdan imtina

Səhiyyə işçiləri və ya pasiyent təşkilatları ilə qarşılıqlı əlaqə

Təşviqat fəaliyyəti və Elmi mübadilələr

Hədiyyələr və Qonaqpərvərlik

Maraqların toqquşması

Rəqabət və Dürüst işgüzar təcrübə

Beynəlxalq Ticarət fəaliyyətləri

Uçot məlumatları və qeydlər

Məxfi məlumat

Məlumatların qorunması

əqli mülkiyyət

Mübahisəli faydalı qazıntılar

## əMəK 7

İnsan hüquqları

əmək hüquqları / Qısnama və ayrı-seçkiliyə sıfır dözümlülük

Uşaq əməyindən istifadə Məcburi əmək və İnsan alveri

İş vaxtı, əmək haqqı və Müavinətlər

Sərbəst seçim azadlığı

## KEYFİYYƏT 8

İdarƏçilikdə dəyişiklik

Keyfiyyət / Vaxtında çatdırılma Keyfiyyət Sistemi / Keyfiyyət tələbləri Qablaşdırma / Etiketləmə

## SAĞLAMLIQ, ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ VƏ ƏTRAF MÜHİT 9

İşçilərin qorunması

Texnoloji təhlükəsizlik

ətraf mühitin mühafizəsi və İcazələr

Kimyəvi maddələr, Tullantılar və Emissiyalar

## KODEKS ÜZRə POZUNTULARIN MəRUZə EDİLMəSİ (MəLUMATLANDIRMA) 10

Hesabatlılıq

İntizam tənbeh tədbirləri

# İŞGÜZAR ETİKA

## Rüşvətxorluqdan imtina

Menarini rüşvətxorluğun istənilən formasını (açıq, gizli, aktiv və ya passiv), mənimsəmə, fırıldaqçılıq, oğurluq və/və ya qanunsuz imtiyazların verilməsini qəti qadağan edir.
Üçüncü tərəflərimizdən korrupsiya və ya rüşvətxorluqda iştirak hesab edilə biləcək, xüsusilə də Menarini şirkəti üçün və ya onunla işləyəndə hər hansı fəaliyyətlə (qanunsuz ödənişlər də daxil olmaqla) məşğul olmamaq gözlənilir.
Bundan əlavə, üçüncü tərəflər hər hansı özəl kommersiya müəssisəsini Menarini şirkətinə biznes imkanını qanunsuz olaraq əldə etməkdə və ya əldə saxlamaqda və yaxud hər hansı qanunsuz imtiyazı təmin etməkdə kömək etməyə təşviq etmək məqsədi ilə bu müəssisənin istənilən nümayəndəsinə və ya işçisinə pul və ya qiymətli bir şey verməməli, təklif etməməli, vəd etməməli, qəbul etməməli və ya tələb etməməlidirlər.
Biz yalnız bizim etik standartlarımıza sadiq olanlarla münasibətləri qoruyub saxlamaq üçün Üçüncü Tərəflərin seçimində ehtiyatlı davranır və lazımi diqqət göstəririk.

## Səhiyyə işçiləri və ya pasiyent təşkilatları ilə qarşılıqlı əlaqə

Bizim adımızdan Səhiyyə işçiləri, Səhiyyə müəssisələri və ya Pasiyent Təşkilatları ilə qarşılıqlı əlaqə qurarkən Üçüncü Tərəflərdən dürüst və müvafiq qanunlara, normativ aktlara, təlimatlara və sənaye qaydalarına uyğun hərəkət etmələrini gözləyirik.

## Təşviqat fəaliyyəti və Elmi mübadilələr

Üçüncü tərəflərdən bütün marketinq və təşviqat materiallarını və fəaliyyətlərini yüksək etik, tibbi və elmi standartlara uyğun və
bütün müvafiq qanunlara, normativ aktlara, təlimatlara və sənaye qaydalarına riayət etməklə yerinə yetirməsi gözlənilir.

## Hədiyyələr və Qonaqpərvərlik

Üçüncü tərəflər Menarini şirkətinin əvvəlcədən razılığını almadan şirkət üçün və ya onun adından hədiyyələr, qonaqpərvərlik və ya şəxsi mənfəətin hər hansı digər növünü qəbul və ya təklif etməməlidir.

Adi hədiyyələr bu cür nəzakətin alıcıya rüşvət vermək məqsədi daşıması kimi qəbul edilə bilməyəcəyi hallarla məhdudlaşa bilər. Bundan əlavə, onlar yerli təcrübə, qanun və normativ aktlar ilə icazə verilən işgüzar nəzakət qaydalarına və standartlarına riayət etməlidirlər.

## Maraqların toqquşması

Menarini şirkəti faktiki və ya potensial maraqların toqquşmasına səbəb ola biləcək hər hansı vəziyyətin aşkar edilməsinə və onların aradan qaldırılması və ya azaldılması üçün tədbirlərin həyata keçirilməsinə tam sadiqdir.
Menarini şirkəti maraqların toqquşmasını Üçüncü Tərəfin maraqları toqquşduğu zaman yaranan və ya Menarini şirkətinin maraqları ilə hətta potensial olaraq ziddiyyət təşkil edən hər hansı vəziyyət kimi müəyyən edir.

Üçüncü tərəf hətta potensial maraqların toqquşması və ya Menarini şirkəti üçün ciddi kommersiya və ya nüfuz problemi yarada biləcək həssas vəziyyət barədə xəbərdar olarsa, bu barədə vaxtında məlumat verməlidir.

## Rəqabət və Dürüst işgüzar təcrübə

Menarini şirkəti korporativ dəyərlər çərçivəsində azad və ədalətli bazar rəqabətini dəstəkləyir. Buna görə də, sosial məsuliyyət məsələsi olaraq, o, mahiyyəti üzrə rəqabət aparmağa, eləcə də təhrif edilməmiş rəqabəti və ədalətli sövdələşməni təmin etməyə çalışır.
Menarini şirkətinin korporativ dəyərlərinə uyğun olaraq Üçüncü tərəflər öz növbəsində ədalətli rəqabətə sadiq olmalı və müvafiq antiinhisar qanunvericiliyinə və rəqabət haqqında qanunvericiliyə uyğun olaraq, ayrılıqda və digər hüquqi və ya fiziki şəxslər ilə birlikdə, istənilən rəqabət əleyhinə hərəkətlərdən çəkinməlidirlər.

## Beynəlxalq Ticarət Fəaliyyətləri

Üçüncü tərəflər bütün beynəlxalq ticarət, o cümlədən idxal və ixracı tənzimləyən və ya ticarət sanksiyaları və embarqolar ilə əlaqəli olan qanun və normativ aktlara riayət etməlidirlər.

## Uçot məlumatları və qeydlər

Mühasibat uçotunun beynəlxalq prinsiplərinə uyğun olaraq, Üçüncü tərəflərdən dəqiq uçot aparmaları, həmçinin bütün vergi məsələlərini və bəyannamələri düzgün şəkildə idarə etmələri tələb olunur.

Menarini şirkəti Üçüncü tərəflərin etibarlı bazar iştirakçıları olmasını və bu baxımdan maksimum dərəcədə diqqətli olmasını gözləyir.

## Məxfi məlumat

Biz Üçüncü tərəflərin məxfilik sazişlərinə və bütün müvafiq qanunlara və normativ aktlara uyğun olaraq şirkətin məxfi məlumatlarını qorumasını və onlardan yalnız düzgün şəkildə istifadə etməsini gözləyirik.

## Məlumatların qorunması

Üçüncü tərəflər Menarini şirkəti ilə sövdələşmələri çərçivəsində və bunlarla bağlı emal etdikləri fərdi məlumatları qorumalıdırlar. Xüsusilə, Üçüncü tərəflər məlumatların emalının qanuniliyini daim təmin etməli; məlumatların qorunması üçün müvafiq qoruyucu tədbirləri və yüksək standartları tətbiq etməli; məlumatların toplanmasından məlumatların silinməsinə qədər məlumatların emalının bütün mərhələlərində fərdi məlumatları yanlış istifadədən və icazəsiz girişdən qorumalı; məlumatların pozulması barədə vaxtında məlumat verməlidirlər. Üçüncü tərəflər həmçinin məlumatların qorunması qanunlarına tam riayət olunmasını təmin etmək üçün Menarini şirkəti ilə şəffaf və sadiq şəkildə əməkdaşlıq etməlidirlər.

## Əqli mülkiyyət

Menarini şirkəti üçüncü tərəflərin əqli mülkiyyət hüquqlarına hörmət edir.
Üçüncü tərəflərin Menarini şirkətinin və digər şəxslərin əqli mülkiyyət hüquqlarına, eləcə də bütün tətbiq olunan qanun və normativ aktlara hörmət etməsini gözləyirik.

## Mübahisəli faydalı qazıntılar

Üçüncü tərəflərimizin lazımi tədbirlər və kompleks qiymətləndirmə ilə Menarini tərəfindən təmin edilən məhsulların tərkibində birbaşa və ya dolayı yolla silahlı qruplaşmaları maliyyələşdirən və ya onlara kömək edən mübahisəli bölgələrdən əldə edilən minerallardan və ya onların törəmə məhsullarından əldə edilən metallar olmadığına əmin olmaları gözlənilir.

# əMəK

## İnsan hüquqları

Menarini hər hansı sui-istifadədə iştirakdan çəkinərək Birləşmiş Millətlər Təşkilatının Ümumidünya İnsan Hüquqları Bəyannaməsi ilə müəyyən edilmiş prinsipləri dəstəkləyir və onlara hörmət edir.

Biz Üçüncü tərəflərdən bizimlə insan hüquqlarına eyni sadiqliyi bölüşmələrini tələb edirik.

## əmək hüquqları / Qısnama və ayrı-seçkiliyə sıfır dözümlülük

Üçüncü tərəflərdən bütün tətbiq olunan qanunvericiliyə uyğun olaraq işçilərin ləyaqətini, sağlamlığını, azadlığını və bərabərliyini təşviq etmələrini gözləyirik.

Biz irq, dərinin rəngi, cinsiyyət, din, milli mənşə, seksual oriyentasiya, yaş, əlillik, hamiləlik, ailə vəziyyəti və ya veteran status, və ya müvafiq qanun və normativ aktlarla əhatə olunan hər hansı digər aspekti kimi şəxsi keyfiyyətlərə görə qısnama, hədə-qorxu, məcburiyyət və ya qərəzi qəbul etmirik.

## Uşaq əməyindən istifadə, Məcburi əmək və İnsan alveri

Üçüncü tərəflərin insan alverinə və ya müasir köləliyə, o cümlədən, məcburi, asılı, qeyri-ixtiyari əmək və ya uşaq əməyinə cəlb olunmamasını gözləyirik.

Üçüncü tərəflər uşaq əməyindən istifadə etməməli və işlədikləri ölkədə və ya ölkələrdə işləmək üçün tətbiq olunan minimum yaş tələbinə uyğun işçiləri işə götürməlidirlər.

## İş vaxtı, əmək haqqı və Müavinətlər

Üçüncü tərəflər iş vaxtını, əmək haqqının və iş vaxtından artıq işlərin ödənilməsini fəaliyyət göstərdikləri ölkələrin və ya ölkələrin müvafiq qanun və normativ aktlarına uyğun olaraq müəyyən etməlidirlər.

## Yığıncaqlar və birləşmək azadlığı

Üçüncü tərəflərin tətbiq olunan yerli qanunlara və normativ aktlarna uyğun olaraq işçilərin sərbəst birləşmək, həmkarlar ittifaqına daxil olmaq, təmsilçiliyə çalışmaq, İş şuralarına qoşulmaq və kollektiv danışıqlarda iştirak etmək hüququna hörmət etməsini gözləyirik.

# KEYFİYYƏT

## İdarəçilikdə dəyişiklik

Biz Üçüncü tərəflərin Menarini şirkətinin alacağı istənilən mallara görə texniki xüsusiyyətlərdə, detalların dizaynında, materialında, istehsal prosesində, istehsal yerində və ya qeydiyyat vəziyyətində əvvəlcədən yazılı razılıq olmadan heç bir dəyişiklik etməməsini gözləyirik.

## Keyfiyyət / Vaxtında çatdırma

Üçüncü tərəflər bizim tələblərimizə uyğun olaraq vaxtında çatdırmanı təmin etməlidirlər.

Üçüncü tərəflərimizin məhsulun keyfiyyət göstəricilərinə nəzarət etmələrini və daxili qüsurların, müştəri şikayətlərinin və göndərilən qüsurların azalması ilə ölçülən daimi təkmilləşdirməni nümayiş etdirməsini gözləyirik.

Üçüncü tərəflər Menarini şirkətinin etdiyi bütün şikayətlərə vaxtında cavab vermək imkanına malik olmalıdır.

## Keyfiyyət sistemi / Keyfiyyət tələbləri

Üçüncü tərəflər onların məhsullarının istehsal edildiyi və / və ya paylandığı bütün müvafiq dövlətin normativ aktlarına, habelə müvafiq hallarda təyinat ölkələrindəki normativ aktlara uyğun olan keyfiyyət sistemi və məhsul qeydiyyatına malik olmalıdırlar.

## Qablaşdırma / Etiketlmə

Məhsul səhv identifikasiyanın olmamasını təmin edən və tam izləməni təmin etməyə imkan verən müvafiq etiket məlumatları ilə düzgün şəkildə müəyyən edilməlidir.

# SAĞLAMLIQ, ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ VƏ ƏTRAF MÜHİT

## İşçilərin qorunması

Menarini şirkəti təhlükəsiz iş yerini təmin etməyə, işçilərin sağlamlığının və təhlükəsizliyinin profilaktikası və qorunması mədəniyyətini gücləndirməyə, risklər barədə məlumatlılığı artırmağa və məsuliyyətli davranışı təşviq etməyə çalışır. Bu, bütün işçilərin daim məlumatlandırılması, öyrədilməsi və maarifləndirilməsi yolu ilə əldə edilir.
Üçüncü tərəflərin bu öhdəliyi bölüşməsini və şəxsi ləyaqətə tam hörmət göstərməsini və sağlamlıq və əməyin mühafizəsi üzrə bütün tətbiq olunan qaydalarına riayət olunmasını təmin etməsini gözləyirik.
Üçüncü tərəflərin səbəblərinin aradan qaldırılması və daimi təkmilləşdirilməsinə nail olmaq üçün iş yerində potensial təhlükəli vəziyyətləri müəyyənləşdirməsini, bildirməsini və qiymətləndirməsini gözləyirik.

## Prosesin təhlükəsizliyi

Menarini tam səmərəliliyə, o cümlədən, dövri fövqəladə təlimlərə davamlı olaraq nəzarət etməklə fövqəladə vəziyyətlərin öhdəsindən gəlmək üçün resursları və prosedurları təmin edir. Üçüncü tərəflərin öz fəaliyyətinin mümkün nəticələrinin qarşısını almaq və ya azaltmaq
məqsədi ilə potensial fövqəladə halları müəyyən etməsini, qiymətləndirməsini və idarə etməsini gözləyirik.

## Ətraf mühitin mühafizəsi və İcazələr

Menarini şirkəti bütün tətbiq olunan beynəlxalq və yerli qanun və normativ aktlara uyğun olaraq ətraf mühitin qorunmasının və biznesin davamlı şəkildə aparılmasının vacibliyini səmimi şəkildə qəbul edir.
Üçüncü tərəflər təbii resursları qorumaqla və bütün tətbiq olunan ekoloji qanun və normativ aktlara riayət etməklə eyni şəkildə hərəkət etməlidirlər. Biznesin aparılması üçün lazım olan bütün ekoloji icazələr, razılıqlar və lisenziyalar alınmalı və onlara riayət olunmalıdır.

## Kimyəvi maddələr, Tullantılar və Emissiyalar

Menarini onların təsirini azaltmaq üçün öz biznesinin bütün ekoloji aspektlərini idarə edir.
Üçüncü tərəflər tullantıların yaranmasını minimuma endirməli, təkrar istifadəsini təşviq etməli, suyun axıdılmasını, atmosferə emissiyaları və ya ətraf mühitə və ya insan sağlamlığına əhəmiyyətli təsir göstərə biləcək hər hansı digər aspekti düzgün şəkildə idarə etməlidirlər.

Üçüncü tərəflər həmçinin öz proseslərində təhlükəli maddələrdən istifadəni də maksimal dərəcədə azaltmalıdırlar.

# KODEKS ÜZRƏ POZUNTULARIN MƏRUZƏ EDİLMƏSİ (MƏLUMATLANDIRMA)

## Hesabatlılıq

Menarini üçüncü tərəfləri, hətta anonim şəkildə və cavab tədbirindən repressaliyadan qorxmadan qanunlar, normativ aktlar və bu Kodeksdəki prinsiplər üzrə hər hansı pozuntu, hətta potensial pozuntu barədə məlumat verməyə təşviq edir.

Effektiv hesabatlılığı təşviq etmək üçün xüsusi məlumatlandırma kanalları mövcuddur:
Veb-sayt: https://menarinigroup.ethicspoint.com
Qlobal tələblərə riayət etmə üzrə poçt qutusu: global compliance@menarini.com
Məlumat pozuntuları və fərdi məlumatlarla bağlı
digər problemlər: dpo@menarini.com

Bütün bildirilmiş problemlər ədalətlə həll ediləcək, düzgün nəzərdən keçiriləcək və ciddi məxfilik şəraitində araşdırılacaq. Müvafiq hallarda siyasətdə hər hansı potensial boşluqların aradan qaldırılması və gələcək pozuntuların qarşısının alınması üçün intizam tədbirləri və düzəldici tədbirlər görüləcəkdir.

Bu Kodeks üzrə bəzi pozuntular Şirkətdən işin sonrakı araşdırma və ya cinayət təqibi üçün müvafiq hökumət və ya nəzarət orqanlarına verilməsini tələb edə bilər.

Biz üçüncü tərəflərin narahatlıqlarını vicdanla ifadə etmələri nəticəsində repressaliyaya məruz qalmayacaqları barədə öz işçilərinə məlumat vermələrini gözləyirik.

## İntizam tənbeh tədbirləri

Menarini Üçüncü tərəflərin etik qaydalara uyğun davranmasını gözləyir və buna görə də onların bu Kodeksə riayət etmələri tələb olunur. Tətbiq olunan qanun və normativ aktlar üzrə hər hansı pozuntu və ya bu Kodeks üzrə hər hansı pozuntu pozuntunun ciddiliyindən və digər konkret müddəalara uyğun olaraq müqaviləyə əsaslanan müvafiq sanksiyalarla nəticələnəcək.

Ethical vision,
Integrity in action

MENARINI group

**Etik baxış**

**Fəaliyyətdə dürüstlükdür**

MENARINI şirkətlər qrupu